Kredo.-2022.-13 aprel.-S.16.

# Hikimətdən ölümə doğru



Ölüm həyatın sarsıdıcı hadisəsi olaraq yaşamaqdadır.

Ölümlə heç vaxt və asanlıqla barışmaq olmur. Ən yaşlı adamın da ölümü doğmalarının, yaxınlarının düşüncəsində kədərli bir iz buraxır.

Bəlkə də ölümün kədərli izi həyatdan vaxtlı, ya vaxtsız getmək nəsibi olmuş insanın özü ilə bağlı deyil. Bütövlükdə insan taleyi ilə bağlı məsələdir ölüm hadisəsi.

Klassiklər deyirdilər ki, hər hansı bir ölüm zəngi insanlıq qitəsindən qopmanın həyəcan səsidir.

Adil Cəmil oğlu Qurbanov... fəlsəfə elmləri üzrə fəlsəfə doktoru idi.

Adili gəncliyində bir dəfə görmüşdüm. Kiyev Dövlət Universitetinin Fəlsəfə fakültəsini qurtarıb Cəbrayıla gəlmişdi. Və onu da mənimlə qohumu, ilk gəncliyimdən aramızda səmimi dostluq münasibətləri ilə bağlandığımız Arif Fərzəliyev tanış etmişdi.

Zamanın qaranlıq dövrü idi. Bəlkə də zamanın yox, ümidlərin qara qarışıq zamanı idi. Qarşıda bizi nələr gözləyirdi?

Xeyir və şərlə savaşın qanlı qırğınında sabahın hansı rəngdə açılacağını bilmək çox çətin idi.

Mən özüm də düşüncə adamlarına, fikir sahiblərinə üz tutub sabah haqqında dilək umanda əslində içimdəki qaranlıqları qovmaq istəyirdim və belə bir zamanda gənc filosof Adil Qurbanovla tanışlıq mənim üçün göydən düşmə olmuşdu.

"Sabah işığındır - Zərdüşt belə deyirdi" bu başlıq altında Adil Qurbanovla müsahibə hazırladım. Aramızda dünyagörüşümüzə və zamana uyğun fikir mübadiləsi oldu.

İndiki kimi yadımdadır. Adil sözünün yekununda dedi ki, kim haqlıdırsa, o da qalib gələcək.

Adil doğru deyirdi, kim haqlıdırsa, o da qalib gəldi. Ancaq 30 ildən sonra.

Qarabəniz, yığcam, kitab kimi gənc oğlanı - sözündə qaynarlığı gözündəki oddan, alovdan işıq alan Adili uzun zaman unutmadım. Həmişə harda olmağını, nə işlə məşğul olduğunu şəxsi marağımla arayıb axtarırdım.

Arada bir incikliyim də oldu. Eşitdim ki, müdafiə edib, ixtisasında tədqiqat aparıb. Uğurla başa çatdırıb. Həmin təqdirli günündə yada düşməməyim məni bir az incitmişdi. Əlbəttə, ailə qurduğunu, ağıllı övladlar böyütdüyünü də bilirdim.

Allah insaf vesin Adilə, mənim özüylə görüşümü nisgilli qoydu. Bilmirəm görüşəsi olsaydım, ondan nəyi soruşacaqdım, o mənə necə cavab verəcəkdi? Yenə də söhbətimiz "Avesta"dan, Zərdüştdən gələcəkdimi, bunu deyə bilmərəm.

Hər halda Adil Qurbanov onu tanıyanların romantik arzularını cavabsız qoymadı. Həyatını bizneslə yox, elmlə bağladı.

Adil haqqında son məlumatı "Xudafərin" qəzetində bizim Şakir Albalıyevin "Mənəvi irsi əbədi yaşayacaq" adlı yazısından aldım. Elə həmin yazıda diqqətimi bir fakt da cəlb etdi: "Sivilizasiyanın ekoloji perspektivləri - tarixi prosesdə ekoloji amil" ("Elm", 2014) adlı kitabı çap olunub. Zənnimcə, 18 sentyabr 1958-ci ildə Cəbrayıl rayonunun Minbaşılı kəndində anadan olmuş, 19 mart 2022-ci ildə həyatını başa vurmuş Adil Cəmil oğlu Qurbanov onu tanıyanların yaddaşında bəşəri həqiqət axtaran bir insan kimi yaşayacaq.

Adilin 30 il əvvəlki sualıma cavabı onun filosof böyüklüyünün təsdiqi olaraq həyatımızın tarixində öz yerini tapdı.

Elm, fəlsəfi axtarışlar yolu bir ziyalı itirdi, tədqiqatçı itirdi. Ağıllı övladları, zəkalı ata itirdi, sevgili ata itirdi... Bizim cəbrayıllılar ruhlarına doğma olan simsar itirdi. Qarabağ, Cəbrayıl öz həsrətlisini itirdi.

Həqiqətlər heç vaxt ölmür. Adil Cəmil oğlu Qurbanov da dünyamızın həqiqəti idi.

***Əli Rza XƏLƏFLİ***
***13.04.2022***